# YAŞIL SÖYÜDLƏRİN ŞAİRİ



**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Hafiz Rüstəmi - bu istedadlı şairi, gözəl ziyalını, tərcüməçi və publisisti çoxdan tanıyıram və tanıdığım gündən də səmimi bir insan olduğuna qətiyyən şübhəm olmayıb. Ara-sıra şeir məclislərində, bir sıra başqa tədbirlərdə yanaşı oturmuşuq. İnsanın dəyərini, necə bir insan olduğunu tanımaq üçün illər, aylar lazım deyilmiş. O insanın sadəcə səsini eşitmək, o səsdəki şeiriyyəti duymaq, onun gözlərinin içinə baxmaq kifayətdi. Hafiz müəllimin gözlərində həmişə doğulduğu Yardımlı dağlarından gələn saflıq hiss etmişəm. Bəlkə onu şeir aləminə çəkən, ürəyini dilləndirən də elə o saflıqdı.**

Şeirlərini və poemalarını mənə təqdim edəndə çox sevindim. Sevindim ki, heç olmasa bir gün onun şeir dolu ürəyinin çırpıntılarını eşidəcəyəm, dünyaya, həyata, gözəllik aləminə, təbiətə şair nəzərlərini seyr edəcəyəm.

Hafiz Rüstəmin şeirləri içərisindən bir neçəsini daha çox bəyəndim. Yəni o şeirlər mənim ruhuma, ürəyimin nazik tellərinə daha yaxındı.

Azərbaycan poeziyasında söyüd haqqında xeyli şeirlər yazılıb. Böyük şairimiz Nəriman Həsənzadə hələ gəncliyində, əllinci illərdə Araz qırağında əyilib o tayı öpən bir söyüd ağacına həsrətli bir şeir həsr edib. Balaş Azəroğlu ona "Məcnun söyüd" adı verib. Hafizin "Yaşıl söyüdlərim"də isə öz əliylə əkdiyi söyüdlərin ömrün xatirə anlarına çevrildiyi, insana məhrəm olduğu, yaddaşında yaşatdığı anlar şeirə gəlir. Söyüdlə şairin vidalaşmağı və şairin söyüdlə bağlı xatirələri həzinliklə qələmə alınıb.

**Oxumaq istədim uşaq səsimlə,**
**Dağılsın başımdan qəmim, qəhərim.**
**Nələr daşıyırsız mənim özümlə,**
**Siz ey səpələnmiş xatirələrim?**

**Söyüdlər, sizlərdə şıltaqlığımın**
**Min bir nağılı var, əfsanəsi var.**
**Uşaq sərtliyimin, yumşaqlığımın**
**Neçə silinməyən nişanəsi var.**

**Yaşıl söyüdlərim, sağlıqla qalın,**
**Nə saralıb, nə də solacaqsınız.**
**Mənim xatirimdə siz qalın-qalın**
**Yaşıl kitablar tək qalacaqsınız.**

Bu şeir 46 il öncə qələmə alınıb, yəqin ki, o söyüdlər hələ də yaşıl yarpaqlarıyla göz oxşayırlar.

Ümumiyyətlə, Hafiz Rüstəmin şeirlərində təbiətdən gələn notlar çoxdu. Təbiət onun şeirlərində necə var, elə görünür və şeirdəki ovqat da çox zaman o təbiət mənzərələrindən vüsət tapır. Yenə həmin ildə yazılan "Payız sovqatı" şeirini misal çəkmək istəyirəm. Şair yazır ki, bir gün doğma kəndi Bərcandan məktub gəlir. Məktubdan kənd payızının ətri gəlirdi.

**Sandım məni kövşən ətri vuracaq,**
**Payız havasında üşüyəcəyəm.**
**Kağız xışıltısı yerinə ancaq,**
**Xəzəl xışıltısı eşidəcəyəm.**

**Bir parça kağızda bir parça torpaq**
**Yenidən yaşayıb canlana bilmir.**
**O torpağa həsrət qalmışam, Allah,**
**Könül bu möhnəti daşıya bilmir.**

Hafizin kənd xatirələri yetmişinci illərdən ta bu günə qədər davam edir və bu şeirlərdəki həsrət də bizə tanışdır. Kənddən çıxıb şəhərə yollanmışıq, burada ömrümüzə gün-güzəran axtarmışıq, çox çətinliklərlə üzləşmişik, axır ki, özümüzü təsdiq edə bilmişik, amma həmişə doğulduğumuz ata-baba ocağını, o dağları, o çayları, o bulaqları, o ağacları unutmamışıq və şair olan dostlarımız bunu şeirlərində dönə-dönə vurğulamışlar. Hafizin "Həsrət" şeirində olduğu kimi:

**Ayrıldım həsrətlə ürək döyündü,**
**Hökmünə baş əydim qəza-qədərin.**
**O təlaş əriyib külçəyə döndü,**
**Oldu buz adası xatirələrin.**

**Yenə bahar gəlib şəhərdəyəm mən,**
**Şəhərli qızıdır o sevdiyim qız.**
**Başqa bir sevdadır qəlbimdən keçən,**
**Qala bilməyirəm kəndsiz, bulaqsız.**

Kənd həsrəti, bulaq həsrəti, çəmən həsrəti yaman olurmuş və hətta Hafiz şeirlərinin birində yazır ki, kaş bir çoban olaydım: "Şehli arzularımı toplayam çiçək kimi, Ah, necə də istərdim, olam orda bir çoban, Dağlar-daşlar titrəyə dəmir addımlarımdan".

Amma Hafiz Rüstəm bu "arzusuna" çatmadı, o, ədəbiyyat aləmində, naşirlik fəaliyyətində özünü təsdiq etdi.

Hafiz Rüstəmin şeirlərini illər üzrə izlədikdə onun bir şair kimi necə inkişaf etdiyinin, yeni mövzulara müraciət etdiyinin, sənətkarlıq axtarışlarına meyl etdiyinin şahidi oluruq. Onun yaradıcılığında Azərbaycan şeirinin ənənəvi mövzuları ilə qarşılaşırıq: Vətənpərvərlik, Təbiət və Sevgi, bir də dünyada, məmləkətdə, cəmiyyətdə baş verən hadisələrə münasibət. Və əlbəttə, bu ənənəvi mövzularla bir sıradı şairin hər bir hadisəyə, həyatda onu düşündürən, narahat edən məsələlərlə bağlı yazdığı şeirləri də az deyil.

Hafiz Rüstəmin şeirlərini bir şair ömrünün keçdiyi ömür yolunun poetik mənzərələri kimi düşünürük. Hiss olunur ki, o, mümkün qədər öz ürəyinin, hiss və duyğularının səsinə qulaq asmışdır. Öncə xatırladıq ki, onun şeirlərində kəndlə, təbiətlə bağlılıq çox güclüdür. Bu duyğular təkcə həsrətdən doğmur, həm də təbiətə, kəndə olan böyük sevgidən doğur. Torpağı sevmək, kəndi sevmək elə Vətən sevgisinin bir parçası deyilmi? Xüsusilə, yetmişinci illərin ortalarında yazılan "Dağlarda görüş" şeiri Hafiz Rüstəmin o dövr üçün ən uğurlu şeirlərindən biri idi. O illərdən başlamışdı ana təbiətə qəsdlər, ekoloji nizamın pozulması, quruyan çaylar, kəsilən, doğranan meşələr. Ona görə də Hafizin bu şeiri poeziyamızın həyəcan siqnalını ifadə edən şeirlər sırasına qoşuldu:

**Köks qəfəsindən indi aç, burax!**
**Çırpınan qəlbini qaranquş kimi.**
**Səni qucaqlasın bu göy, bu torpaq**
**Bir azadlıq kimi, qurtuluş kimi!**

**Döysün dolu səni, ya yağış səni,**
**İçindən ağrılar çıxıb gedincə!**
**Bahar qarşılasın üzü xoş səni,**
**Dincəlsin beynin də hər şeydən öncə.**

**Sığın yurdumuzun saf bucağına**
**Ana ağuşuna sığınan kimi.**
**Korun-korun yanan od-ocağına**
**Yiyə dur ən nəcib bir insan kimi.**

Hafiz Rüstəmin ana təbiətlə, yurdla bağlılığı onun "Bakıdan Yardımlıya səyahət" poemasında ən parlaq ifadəsini tapır. Bu poema vaxtilə bir məqaləmdə "xatirələr sərgisi"nə bənzətmişdim. Bu "sərgidə" həzin, kövrək anlar daha çoxdur, lirik qəhrəmanın şairin doğulduğu kəndlə, o kəndin unudulmayan adamlarıyla, gözəl təbiəti və adət-ənənələriylə bağlı yaddaşında diri qalan xatirələri oxucuda emosional ovqat yaradır. Xatirələr şahə qalxır və illərin o sahilindən aşıb-daşan, məcrasına sığmayan dalğalar bu sahilə axışır. Beləliklə, iki zaman qovuşur - Keçmiş və Bu Gün.

**Sahilləri görünməz okeana bənzəyir,**
**Bilmək olmur haradan başlayır xatirələr.**
**Mürgüləyən, yuxulu bir azmana bənzəyir,**
**Yenidən "oyanmağı" xoşlayır xatirələr.**

**Yenidən yaz ömrümüz açılır çiçək-çiçək,**
**Ağrılar-acılar da görünür gözəl-göyçək.**
**Gözümüzün önündə canlanan gerçək-gerçək**
**Bir macəra filminə oxşayır xatirələr.**

**Gördüyümüz fərəhlər, dəhşətlər yada düşür,**
**Baş tutmayan sevdalar, həsrətlər yada düşür.**
**Öz həyat dərslərimiz, ibrətlər yada düşür,**
**Ölməz nəğmələr kimi yaşayır xatirələr.**

Poema bitkin bir süjet üzərində qurulub. Epik-lirik səciyyəli bu poemada təhkiyəçi (şair) müəyyən marşrut üzrə hərəkət edir.



O, tanınmış siyasətçi Mir Mahmud ağa ilə (onun da əsli Yardımlıdandır) "Azneft" meydanından Yardımlıya yol alır. Yolboyu düşüncələr bizi yaxın keçmişdə baş verən hadisələrə, ictimai-siyasi olaylara çəkib aparır. Milli birlik ideyası üstündə köklənən bu düşüncələr tədricən Türkiyə-Azərbaycan dostluğu üzərinə yönəlir, Şamaxı yolunda bir türk zabitinin tənha məzarına gətirib çıxarır. Naməlum şəhidin məzarı üzərində ucaldılmış abidəyə böyük şairimiz Bəxtiyar Vahabzadənin yazdığı epitafiyanı oxuyuruq:

**Yolçu! Dayan burda, düşün bu yerdə,**
**Soruş kimdir yatan bu tək qəbirdə?**
**O, bir türk zabiti, doğuldu haqdan,**
**Sənin yardımına gəldi uzaqdan.**

**O, sənin arxanda bir dağa döndü,**
**Bu torpaq yolunda torpağa döndü.**
**Yolçu bir anlığa burda dayan, dur!**
**Ayaq basdığın yer ona borcludur.**

Poemada ən şirəli, oxunaqlı, ürəkdə duyğular oyadan fəsillər Yardımlının nadir təbiət mənzərələrinin təsviri ilə bağlıdır. Deyərdik ki, əsərin şeiriyyət baxımından uğurlu məqamları da elə bu təsvirlərdir. Hafiz siyasi məsələlərdən söz açanda sanki danışır, nəql edir, amma torpaqla, təbiətlə bağlı təsvirlərində danışmır, sadəcə lövhələr, "rəsmlər" çəkir. Biz onun təsvirlərində "qüdrətdən yaranan meşələri", "dağların təkini, üfüqün qaşını", min illərin sakinləri olan palıdları seyr edirik. "Burada susur söz, dinir təbiət, Burada uyuyur ilahi cənnət". Müəllif yeri gəldikcə Yardımlıda, həmçinin Cənub bölgəsində bitən nadir ağaclar, çaylar, dağlar haqqında da səhifənin sonunda məlumat verir. Məsələn, yazır ki: "Dəmirağac Masallı-Yardımlı yolunun sol tərəfindən keçən Viləşçayın hər iki sahilindəki meşə yamaclarında bitir. Bu həmişəyaşıl ağac kənardan ağacların bahadırı, qollu-budaqlı, əzələli, güclü pəhləvanı kimi dərhal diqqəti cəlb edir. Boz, tünd mis rəngli, nəsə qeyri-adi, qocaman gövdəsindən ayrılan, ancaq yenidən bir-birinə pərçimlənərək qaynayıb-qarışan bəzi qonur, qüvvətli budaqları insanı heyrətləndirir". Belə açıqlamalara poemanın əksər səhifələrində təsadüf edirik və deyək ki, bu məlumatlar oxucunun maraq dairəsini artırır.

Əsərdə Yardımlının ayrı-ayrı kəndləri barədə də təsvirlərlə tanış oluruq. Budur o fəsillər: "Bərcan", "Təkdam şəlalələri", "Abidərdə", "Ələm ağacı", "İlk bahar lövhələri", "Məcun dağ havasında", "Dağlar, meşələr" Hafiz Rüstəm bu fəsillərdə sözlə rəsmlər çəkməyə cəhd edir və əksərən, buna nail olur. O, yaxşı bilir ki, təbiət gözəlliklərini adi sözlərlə, qupquru nəzm parçaları ilə təsvir etmək olmaz. Ona görə də, təsvir etdiyi təbiət lövhələrinə poetik səmimiyyət qatır, bənzətmələr, metaforalar, epitetlərlə obrazlılığa yol alır. Müəllifin ayrı-ayrı fəsillərdə təqdim etdiyi qoşmalar, gəraylılar da şeiriyyət baxımından uğurludur. Əsas odur ki, bu qoşma və gəraylılarda hisslərin, duyğuların poeziyası ilə qarşılaşırıq. Şair qoynundan uzaq düşdüyü dağlara həsr etdiyi bir qoşmada pərişanlıq, peşmançılıq hisslərini necə də səmimiyyətlə ifadə edir:

**Sizsiz neçə-neçə illər ötüşdü,**
**Əsdi ruzigarlar, yellər ötüşdü.**
**Ələndi qar-yağış, sellər ötüşdü,**
**Mənsə yanınızdan ötmədim, dağlar.**

Yeri gəlmişkən qeyd edim ki, Hafizin ondan çox poeması var və bu poemalardan biri də "Şuşanın dağları"dır. Böyük vətənpərvərlik hissilə yazılan bu poemada Qarabağ həsrəti-şuşa həsrəti çox təsirli lövhələrlə təqdim edilir.

Əlbəttə, bir yazıda H.Rüstəmin bütün şeirləri və poemaları barədə geniş söz açmaq mümkün deyil. "Görünən kəndə nə bələdlik" deyiblər. Amma insafsızlıq olar ki, onun Anaya və ülvi məhəbbətə həsr etdiyi şeirlərindən söz açmayaq. Fikrimcə, Hafizin "Yenə anam olaydı" şeiri poeziyamızda Anaya həsr edilən ən yaxşı şeirlərin sırasındadır.

**Ana təbiət məni keçirib köynəyindən,**
**Öpəydi gözlərimdən, tutaydı biləyimdən.**
**Mən də dağ ətəyindən anamın ətəyi tək,**
**Yapışıb qopmayaydım nəvaziş gözləyərək.**
**Anamın qolları tək dolanan ağ yolları**
**Boynuma sarıyaydım.**
**Anamın saçları tək ipək şəlalələri**
**Daraq barmaqlarımla oxşayıb darayaydım.**

Sevgi şeirlərinə gəlincə, onu deyə bilərəm ki, Hafiz ancaq yaşadığı hissləri qələmə alıb. Saf, təmiz hisslər, kövrək duyğular

Hafiz Rüstəm təmiz yazır. Sadə yazır. Hətta o qədər sadə yazır ki, fikirləşirsən: daha mükəmməl, daha dolğun yaza bilərdi. Amma bu da onun dəst-xəttidir.

**Mən Hafiz müəllimə şeiriyyət yollarında uğurlar arzulayıram. Şeirləri özünə, özü şeirlərinə oxşayan bu gözəl şairə arzum budur ki, 65 yaş onu qorxutmasın, şairin yaşı onun şeirlərindədir. Bu şeirlər isə hələ gəncdirlər, qocalmayıblar...**